Cotton production and processing in Azerbaijan

Yunus Sadigov
Ph.D., Associate Professor, leading research fellow,
Institute of Economics of ANAS. Azerbaijan.
E-mail: y.sadikhov@mail.ru
https://orcid.org/0000-0002-7306-6495

Abstract. The article analyzes and evaluates the history of cotton cultivation and processing in Azerbaijan, the current situation, gives information and recommendations on development prospects. At the same time, the directions of development of cotton growing and cotton processing are shown, it is justified that agricultural products are one of the activities with the greatest economic effect in terms of profitability. The need to raise cotton and cotton processing plants in the country, as well as the knitting industry to the previous level as one of the sectors alternative to the oil sector in terms of profitability, was emphasized. In order to increase competitiveness and increase efficiency in the non-oil sector of Azerbaijan, the development of cotton production and, in parallel, the cotton industry was identified as a priority area. It has been argued that clusters can be more effective in the development of the cotton and knitting industries, and some specific proposals have been made.
Keywords: raw cotton, cotton enamel, cotton processing, subsidy, cluster, purchase price, profitability, cost.

JEL Q00, Q13; **UDC** 332.02
To cite this article: Sadigov Y. (2021). Cotton production and processing in Azerbaijan. *Economic Growth and Social Welfare*, Issue II, pp. 81-90.
Article history: Received – 20.04.2021; Accepted – 27.06.2021

Azərbaycanda pambıq istehsalı və emalı

Yunus Sadıqov
İqtisad üzrə fəlsəfə doktoru., dosent, aparıcı elmi işçi,
AMEA İqtisadiyyat İnstitutu. Azərbaycan.
E-mail: y.sadikhov@mail.ru
https://orcid.org/0000-0002-7306-6495

Annotasiya. Məqalədə Azərbaycanda pambıqçılıq və onun emalının keçmişi, mövcud vəziyyəti təhlil edilərək qiymətləndirilmiş, inkişaf perspektivinə dair məlumat və tövsiyələr təqdim olunmuşdur. Eyni zamanda pambıqçılıq və pambıq emalının inkişaf istiqamətləri göstərilməklə, rentabelliyinə görə kənd təsərrüfatı məhsulları içərisində ən çox iqtisadi effekti olan fəaliyyət növlərindən biri olduğu əsaslandırılmışdır. Ölkədə pambıqçılıq və pambıq emalı müssisələrinin, eyni zamanda trikotaj sahələrinin yenidən əvvəlki səviyyəyə qaldırılmasının zəruriliyi göstərilmiş, gəlirliyinə görə neft sektoruna alternativ sahələrdən biri kimi əsaslandırılmışdır. Azərbaycanın qeyri-neft sektorunda rəqabət qabiliyyətinin yüksəldilməsi və səmərəliliyin artırılması istiqamətində pambıqçılıq və paralel olaraq tirkotaj sənayesinin inkişafı prioritet sahə kimi göstərilmişdir. Pambıqçılığın və trikotaj sənayesinin inkişafında klasterlərin daha səmərəli ola biləcəyi əsaslandırılmış və bəzi konkret təkliflər verilmişdir.

Açar sözlər: xam pambıq, pambıq email, pambıq lifi, subsidiya, klaster, satınalma qiyməti, rentabellik, maya dəyəri.

JEL Q00, Q13; **UDC** 332.02
Məqaləyə istinad: Sadıqov Y. (2021). Azərbaycanda pambıq istehsalı və emalı. *İqtisadi Artım və İctimai Rifah*, № 2, səh. 81-90.
Məqalə tarixçəsi: göndərilib – 20.04.2021; qəbul edilib – 27.06.2021

Giriş / *Introduction*

Azərbaycanda iqtisadiyyatda rəqabət qabiliyyətinin yüksəldilməsi və səmərəliliyin artırılması ölkənin əsas iqtisadi prioritetlərindəndir. Görülmüş tədbirlər nəticəsində ənənəvi kənd təsərrüfatı sahələrinin dirçəldilməsinə diqqət artmaqdadır. Bu baxımdan pambıqçılıq və onun emalı daim diqqət mərkəzində saxlanılır. Kənd təsərrüfatı məhsulları içərisində pambıqçılıq və onun emalından yaranan məhsul istehsalı gəlirliyinə və səmərəliliyinə görə çox əhəmiyyətlidir. Ölkənin əlverişli təbii-coğrafi şəraiti qədimlərdən bu ərazidə pambıqcılığın geniş inkişafına imkan yaratmış və bəzi bölgələrində bu təsərrüfat sahəsi əhalinin iqtisadi həyatında mühüm rol oynamışdır.

Pambıq ən çox yayılmış təbii lifdir. Pambıq əkini ilə dünyanın 70-dən çox ölkəsindən 200 milyondan çox insanın həyatı bağlıdır; daha 60 milyon insan pambığın müxtəlif cür emalı müəssisələrində məşğuldur. Pambıq ən çox becərilən qeyri-ərzaq bitkisidir.Dünya üzrə pambığın əkin sahəsi 30 milyon hektarı əhatə edir ki, bundan da hər il 20 milyon tondan çox pambıq lifi

istehsal olunur. Aparıcı pambıq istehsalçıları Çin, ABŞ, Hindistan, Pakistan və Özbəkistandır. Bu beş ölkə birlikdə bütün dünya pambığının 65%-ni istehsal edir. Qalan 35%-i dünyanın digər ölkələrində istehsal olunur. Azərbaycanda 2019-cu ildə 295 min ton pambıq istehsal olunmuşdur ki, bu da dünyada istehsal olunan pambığın 0,8%-i deməkdir.

Pambıq isti və işıq sevən bitkidir. Vegetasiya müddətində (110-145 gündür) pambığın yetişməsi üçün orta faydalı temperaturun cəmi 2500-3000 selsidən az olmamalıdır. Becərilən pambıq əsas texniki bitkidir. Dünya toxuculuq sənayesi üçün lazım olan lifin təxminən 50%-i pambıqdan alınır. 100 kq xam pambıqdan orta hesabla 30-35% lif alınır. Lifdən müxtəlif parçaların toxunmasında işlədilən iplik hazırlanır, həmçinin avtomobil təkəri, torlar və kəmərlər üçün kordlar və sair istehsalında istifadə edilir. Pambığın çiyidindən alınan yağ yemək məhsullarında işlədilir, ondan marqarin, qliserin, sabun, stearin, sürtkü yağları hazırlanır, tullantısı sellüloz, spirt, lak, linoleum, karton, kino plyonkası, izolyasiya materialları istehsalında istifadə olunur.

Ölkəmizin yerləşdiyi iqtisadi-coğrafi məkan burada pambıqçılığın stabil inkişaf etdirilməsi üçün olduqca əlverişlidir. Bu baxımdan strateji əhəmiyyət daşıyan pambıq bitkisi ölkəmizin kənd təsərrüfatında aparıcı sahələrdən birini tutur. Respublikanın pambıq əkilən bölgələrində bu bitkinin becərilməsi ilə əlaqədar böyük təcrübə toplanmış, yüksək əkinçilik mədəniyyəti formalaşmışdır.

Əsas hissə / Main part

Ədəbiyyatların təhlili

Bir çox tədqiqatçılar pambıqçılıq və onun emalı ilə əlaqədar çoxlu sayda araşdırmalar aparmış və müxtəlif fikirlər irəli sürmüşlər.

Hümbətov və Xəlilov (2012) pambıqçılığın əhəmiyyətini göstərərək qeyd etmişlər ki, "Fermer (kəndli) təsərrüfatlarının inkişaf etməsi, pambıq məhsullarının ilk emalı və saxlanması ilə sıx sürətdə bağlıdır. Fermer əməyinin bəhrəsini məhsulun emala çatdırlmasında görür. Yağ verən bitki məhsullarının emalında, yağ çıxarıldıqdan sonra alınan qalıqlar, jmıx (cecə), şulka (toxumun qabığı) və digər tullantılar heyvandarlıqda qüvvəli yem kimi geniş tətbiq edilir ki, bu da fermerlər üçün böyük əhəmiyyət kəsb edir."

Ajimetova (2011a) "Dünya təcrübəsi və Qazaxıstanda pambıqçılığın inkişafına baxış" məqaləsində göstərir ki, "Verilən subsidiyalar müəyyən dərəcədə pambıq lifinin dünya qiymətlərinin azalmasına da təsir göstərir. Qlobal pambıq balansı göstərir ki, istehlak səviyyəsi bütün dünyada artır, Çində istehsal isə ümumi dünya istehsal səviyyəsini artırır. Bunun əsas səbəblərindən biri Çinin tekstil sənayesinin 95-%-nin dövlətə məxsus olmaması və bazar yönümlü olmasıdır. İxracat yönümlü məhsulların payı 53 faizdən çoxdur".

Gulyayev, Lugachev, Usmanovun (2017) "Dünyanın aparıcı pambıqçılıq ölkələrində pambıq məhsullarının istehsalı, emalı, istehlakı və keyfiyyətinin müasir vəziyyəti" adlı monoqrafiyasında dünyanın pambıq ölkələrində müasir vəziyyətə baxış verilmiş, eyni zamanda pambıq məhsullarının istehsalı, emalı, istehlakı və keyfiyyəti barədə əsaslı fikir mübadiləsi yer almışdır, konkret nəticələrə gəlinmişdir.

Ajimetova (2011b) "Qazaxıstanda pambıq emalı sənayesinin klaster inkişafı" adlı məqaləsində pambıq istehsalında və emalında klasterlərin tətbiqinin effektliyini göstərmiş, pambıqçılıqda klasterlər məhsuldarlıq, keyfiyyət və gəlirlərin düzgün bölüşdürülməsində böyük təsir gücünə malik olduğunu göstərmişdir.

Əliyev (2019) "Klasterlər Beynəlxalq təcrübə və innovativ inkişaf" adlı monoqrafiyasında Azərbaycanın iqtisadi rayonları üzrə klasterlərin yaradılmasını məqsədəuyğun saymış, bu iqtisadi idarəetmə formasının tətbiq edilməsinin zəruriliyindən bəhs etmişdir.

Metodologiya

Tədqiqat prosesində statistik informasiyaların sistemli təhlili, müqayisə, analitik ümumiləşdirmə təhlil metodlarından istifadə edilmişdir.

Nəticələr və müzakirə

Pambıqçılığın keçmişi, bu günü və sabahı

Azərbaycanda aqrar sektorun strateji və ölkəyə valyuta gətirən mühüm sahələrindən biri olan pambıqçılıq əməktutumluluğuna və ümumi məhsul buraxılışının həcminə görə yüksək göstəriciləri ilə fərqlənir. Ölkədə pambıq istehsalı üçün əlverişli təbii iqlim şəraitinin və ənənələrin mövcudluğu, emal sənayesinin xammala tələbatının yerli istehsal hesabına ödənilməsi imkanları, həmçinin pambıq və ondan hazırlanmış son məhsullar üzrə ixrac potensialının olması pambıqçılığın daha da inkişaf etdirilməsini zərurətə çevirir. Eyni zamanda torpaqların mövcud vəziyyəti, təbii iqlim şəraiti, su ehtiyatları, əmək resursları və aqrotexniki servis xidmətinin səviyyəsi bir sıra bölgələrdə pambıq əkininin həyata keçirilməsinə imkan verir.

Sovet Ittifaqı dağıldıqdan sonra Azərbaycan 1991-ci ildən müstəqil dövlət oldu. Iqtisadiyyatın bütün sahələrində tənəzzül və köklü dəyişikliklər baş verməyə başladı. Bu prosesdə aqrar sahə xeyli itki verib. Yeni texnikanın alınması demək olar ki, dayandırıldı, istehsal və sosial infrastruktur dağıldı. Əhalini ərzaqla, sənaye müəssisələrini isə xammal ilə təmin edən emal sahəsi daha çox zərər gördü.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə ölkədə pambıq əkin sahələri tədricən azalmağa və taxıl əkinlərinin sahələri artırılmağa başlandı. Bütün pambıq emalı zavodları özəlləşdirilərək özəl mülkiyyətə verilmişdir. Torpaqlar özəlləşdirildi. Xam pambığın əsas istehsalçıları 3-7 hektar torpaq sahəsi olan kişik kəndli təsərrüfatları oldular. Bu isə səmərəli istehsal aparmaq, yəni pambığın məhsuldarlığını və keyfiyyətini artırmaq üçün bütün lazımi aqrotexniki tədbirlərə əməl etmək üçün olduqca azdır. Mineral və üzvi gübrələrin tətbiq həcmi xeyli azalmış, zəruri əkin dövriyyələri aparılmamışdır. Pambıq istehsalçılarını (fermerləri) pambıq emalı zavodları maliyyələşdirirdi. Belə ki, yazda pambıq əkinindən əvvəl kəndli təsərrüfatları pambıq emalı zavodlarından kredit formasında maliyyə vəsaiti alırdılar. Sonra payızda yığılan məhsul ilə alınan pulları geri qaytarırdılar. Nəticədə pambıq istehsalçıları zavod sahibləri ilə müqayisədə əsasən zərərdə qalırdılar. Pambıq istehsalçıları və emalçıları arasında bu sahədən gələn gəlirlərin bölüşdürülməsində güclü dispraporsiya müşahidə edilirdi. Xam pambıq emalçıları ölkənin pambıq bazarında alış qiymətlərini diktə edən əsas inhisarçılara çevrildilər. Əldə edilən pambıq lifinin böyük hissəsi pambıq emalı zavodları tərəfindən ixrac üçün göndərilir, daxili istehlak isə çox cüzi olmuşdur. Nəticədə bir çox toxuculuq müəssisələri xammalın olmaması və avadanlıqların köhnəlməsi səbəbindən fəaliyyətlərini saxladılar. Bu hallar indi də davam edir.

Təbii ki, bütün bunlar pambığın əkin dövriyyəsinə və istehsalına təsirsiz ötüşmədi.

Cədvəl 1. Pambığın əsas göstəricilərinin dinamikası

	1981	2003	2013	2016	2017	2018	2019
Cəmi pambıq əkini (min ha.)	283,0	66,8	23,5	51,4	136,4	132,5	100,1
Pambıq istehsalı (min tonla)	1015	99,6	45,2	89,4	207,5	233,6	295,3
Məhsuldarlıq (sent/ha)	35,9	15,0	19,3	17,3	15,3	17,6	29,5

Mənbə: ARDSK (2021).

Cədvəl 1-dən göründüyü kimi 1981-ci ildə Azərbaycanda pambıq tədarükü 1 milyon 15 min tona çatmışdır. 2013-cü ildə cəmi 23,5 min hektarda pambıq əkilmişdir və 45,2 min ton məhsul tədarük edilmişdir ki, bu da 1981-ci ildən 22 dəfə az idi. 2016-cı ildə artıq 51,4 min hektarda pambıq əkildi və 89,4 min ton pambıq tədarük edildi. 2017-ci ildə 136,4 min hektarda pambıq əkildi və 207,5 min ton məhsul götürüldü. 2018-ci ildə əkin sahələri yenidən azalmağa başladı və 132,5 min hektarda pambıq əkildi. Ancaq daha çox məhsul, 233,6 min ton pambıq istehsal olundu. Hektardan məhsuldarlıq artdı və 17,6 sentnerə qalxdı. 2019-cu ildə isə ən optimal variant təsdiqlənərək, 100 min hektarda pambıq əkildi və 294 min ton məhsul götürüldü. Hektardan məhsuldarlıq artaraq 29,4 sentner olmuşdur. Tarixdə cəmi üç il Azərbaycanda hektardan məhsuldarlıq 30 sentnerdən çox olmuşdur. Bu, 1979-cu ildə 30,8 sentner, 1980-ci ildə 35,4 sentner və 1981-ci ildə 35,9 sentner təşkil etmişdir.

Ölkədə pambıqçılığın yenidən inkişafı üçün ilk mərhələdə hüquqi baza yaradılmağa başlandı. Azərbaycan Respublikasının 2010-cu il 11 may tarixli 1012- IIIQ nömrəli "Pambıqçılıq haqqında" Qanunu pambıqçılığın hüquqi, təşkilati və iqtisadi əsaslarının müəyyən edilməsi ilə yanaşı, xam pambıq və pambıq məhsullarının dövriyyəsi ilə əlaqədar münasibətlərin tənzimlənməsi pambıqçılığın inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində mühüm rol oynadı. Eyni zamanda tətbiq olunan güzəştlər bu sahəyə investisiyaların cəlb olunmasına və ümumilikdə pambıq istehsalına marağı artırmışdır (ARPHQ, 2010).

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dövlət dəstəyi haqqında" 2016-cı il 22 sentyabr tarixli 2350 nömrəli Sərəncamına uyğun olaraq, təhvil verdikləri hər kiloqram xam pambığa görə pambıq istehsalçılarına 0,1 manat subsidiyanın verilməsi və eyni zamanda, şirkətlər tərəfindən xam pambığın tədarük qiymətinin artırılması bu sahənin inkişafına əlavə stimul vermişdir (APİDDS, 2016).

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 iyul tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017–2022-ci illər üçün Dövlət Proqramı təsdiq edilmişdir (APİDP, 2017).

Dövlət Proqramının məqsədi ölkədə pambıqçılıq məhsullarına tələbatın ödənilməsi, pambıq emalı müəssisələrinin xammal təminatının yaxşılaşdırılması, emal sənayesinin inkişaf etdirilməsi, pambıq məhsullarının ixracının artırılması, kənd yerlərində əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi üçün pambıqçılığa dövlət dəstəyinin gücləndirilməsindən və bu sahənin inkişafının stimullaşdırılmasından ibarətdir.

Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

- pambıqçılığın inkişaf etdirilməsi üzrə institusional tədbirlərin həyata keçirilməsi;
- pambıqçılıq sahəsində fəaliyyəti tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi və pambıqçılıq sahəsində elmi təminatın və kadr potensialının daha da gücləndirilməsi;
- pambıqçılığın infrastruktur təminatının yaxşılaşdırılması;
- pambıq istehsalı və emalı sahəsində innovativ texnologiyaların tətbiqinin dəstəklənməsi;
- yerli və xarici investisiyaların bu sahəyə cəlb edilməsinin təşviqi;
- pambıq istehsalçıları ilə emal müəssisələri arasında səmərəli iqtisadi əlaqələrin qurulması;
- pambıqçılıq məhsullarının rəqabət qabiliyyətliliyinin artırılması və ixracının təşviqi;
- pambıqçılıq məhsulları üzrə idxalın əvəzlənməsi səviyyəsinin yüksəldilməsi;
- bu məhsulların istehsalı ilə əlaqəli sahələrin inkişafının dəstəklənməsi;
- pambıqçılıqda kooperasiyanın inkişaf etdirilməsi.

Pambıqçılığın inkişafının əsas istiqamətləri Azərbaycanda pambıqçılığın inkişafı sahəsində qarşıya qoyulmuş məqsəd və vəzifələrin reallaşdırılması üçün aşağıdakı istiqamətlər üzrə müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- qabaqcıl idarəetmə təcrübəsinin, intensiv becərmə-suvarma texnologiyalarının tətbiqi hesabına xam pambıq istehsalının artırılması və bu sahədə səmərəliliyin təmin edilməsi;
- pambıqçılığın müasir texnika ilə təminatının yaxşılaşdırılması;

- pambıq istehsalında növbəli əkin sisteminin tətbiq edilməsi, rayonlar üzrə pambığın optimal əkin sahəsinin müəyyənləşdirilməsi və ixtisaslaşmanın dərinləşdirilməsi;
- mövcud pambıq emalı müəssisələrinin fəaliyyətinin bərpası, modernləşdirilməsi, mütərəqqi texnika və texnologiyalar əsasında yeni pambıq emalı müəssisələri yaradılmasının dəstəklənməsi;
- dərin emal məhsulları istehsalının təşviqi, yeni pambıq emalı məhsulları hesabına ixracın genişləndirilməsi;
- dünya pambıq bazarında müşahidə edilən konyunktur dəyişikliklərinin, o cümlədən kimyəvi liflərin tekstil sənayesində istifadəsinin genişlənməsinin nəzərə alınması, pambıq toxumçuluğu təsərrüfatlarının maddi-texniki bazasının gücləndirilməsi və lifsiz toxum istehsalının təşkili.

Dövlət Proqramının icrası nəticəsində 2022-ci ilədək xam pambıq istehsalı 500 min tona çatdırılmalı və yerli pambıq xammalına əsaslanan tekstil sənayesi formalaşaraq inkişaf etməlidir (APİDP, 2017).

Göründüyü kimi, Dövlət Proqramının əsas müddəalarından biri də pambıqçılığın müasir texnika ilə təminatının yaxşılaşdırılmasıdır. Pambıqçılığın inkişafına təsir edən əsas amillərdən biri istehsalçıların müasir texnika ilə - pambıqyığan kombaynlarla təminatıdır. Aşağıdakı cədvəldə istehsalçıların pambıqyığan kombaynla təminatının illər üzrə dinamikasına baxaq.

Cədvəl 2. Azərbaycanda pambıqyığan maşınların dinamikası

	2013	2014	2015	2016	2017	2018	2019
Pambıqyığan kombaynlar, əd.	52	86	86	89	311	487	482
Hər 1000 ha-ya düşən pambıqyığan kombayn, əd.	2,2	3,7	4,6	1,7	2,3	3,7	4,8
Hər pambıqyığan kombayna düşən əkin sahəsi, ha.	451	266	217	577	439	272	208
Aqrolizinq ASC tərəfindən satılmış pambıqyığan maşın, əd.	-	-	-	94	179	101	45


Mənbə: ARDSK (2021).

Cədvəl 2-dən göründüyü kimi pambıq yığan maşınların sayı istehsal olunan pambıq ilə adekvat deyil. Nəticədə məhsulun böyük bir hissəsi əl ilə yığılır ki, bu da maya dəyərinin artmasına, rentabelliyin aşağı düşməsinə səbəb olur. Onu da qeyd edək ki, 1985 ci ildə pambıq yığan maşınların sayı 4283 ədəd idi. Təqdirə layiq haldır ki, son 4 ildə Aqrolizinq ASC tərəfindən ölkəyə 419 ədəd müasir pambıq yığan maşınlar gətirilərək fermerlərə satılmış və ya lizinqlə verilmişdir. Gətirilmiş pambıqyığan maşınlar Amerika istehsalı olan “Jhon Dreere 9970”, “Cotton Express 420”, “CP-690” pambıqyığan kombaynlarıdır ki, bunlar məhsulu tez bir zamanda və itkisiz yığır. Ancaq bu azdır.Ona görə də Azərbaycan pambıq yığan kombaynların lizinq yolu ilə satışını genişləndirməlidir.

Pambıq istehsalının artırılmasının yeganə yolu bu sahənin rentabelliyinin yüksəldilməsidir. Əgər pambıqçılıqla məşğul olan fermerlər normal mənfəət götürə bilsələr, təbii ki, maraq yaranar və əkin sahələri, paralel olaraq istehsal da çoxalar. Özəl torpaq sahibləri, fermerlər nə əkəcəklərini müəyyənləşdirən zaman ilk növbədə götürəcəkləri mənfəəti nəzərə alırlar. Pambıqçılıqda rentabellik birbaşa onun məhsuldarlığından asılıdır.

Qrafik 1-də Dövlət Statistika Komitəsinin hesabatları əsasında tərtib edilmiş pambıqçılıqda rentabellik dinamikasına nəzər salaq.

Qrafik 1. Pambığın maya dəyəri və rentabellik cədvəli



Mənbə: ARDSK (2021.

Qrafik 1-dən məlum olur ki, 2019-cu ildə rentabellik əvvəlki ilə nisbətən 2 dəfədən çox azalmış, xərclər isə artmışdır. Adətən məhsuldarlıq artanda, rentabellik də artır. Maya dəyərinin səviyyəsi xərclərin həcmi ilə yanaşı məhsuldarlıqdan asılı olduğu kimi, pambıq əkinlərinin mənfəətliliyi də alış qiymətləri ilə yanaşı bilavasitə sahənin məhsul verimliliyindən asılıdır. Məhsuldarlıq və alış qiymətləri yüksəldikcə, maya dəyəri azalır, məhsul vahidinə düşən gəlirlilik artır. Ancaq Dövlət Statistika komitəsinin məlumatlarına inansaq, 2018-ci ildə pambığın məhsuldarlığının respublika üzrə orta göstəricisi hər hektardan 17,6 sent. olmuş, 2019-cu ildə isə bu rəqəm kəskin sürətdə yəni 1,7 dəfə artaraq, müstəqillik dövründə ən yüksək göstəriciyə, yəni 29,5 sentnerə çatmışdır. Təəccüblüdür ki, 2019-cu ildə rentabellik 2018-ci ilə nisbətən 14,3% az olmuşdur. Bu o deməkdir ki, respublika üzrə orta hesabla hər hektar pambıq sahəsinə 870 manat vəsait xərclənmiş, 982 manat gəlir əldə edilmişdir. 2019-cu ildə hər hektardan 112 man. xalis gəlir götürmək fermerlər üçün həddindən artıq azdır və təbii ki, özlərinə məxsus torpaqlarından daha çox mənfəət götürmək üçün taxıl, bostan və ya başqa rentabelliyi daha çox olan bitki növlərinə üstünlük verəcəklər.

Emal zavodlarını əldə etdiyi gəlirləri təxminən hesablayaq, çünki dəqiq rəqəmlər almaq mümkün deyil. Nəzərə alaq ki, 2.5 ton xam pambıqdan 1 ton pambıq lifi, təxminən 1.2 ton çiyid alınır. Öz növbəsində, 2.5 ton xam pambığın emalı üçün müəssisələrin bütün xərcləri orta hesabla 170-180 manat intervalında dəyişir. Beləliklə, 2.5 ton xam pambıq üçün emal müəssisəsi fermerə təxminən 1400-1500 manat ödəyir. Bunun müqabilində onun sərəncamında 1 ton pambıq mahlıcı və 1.2 ton çiyid var. Hazırda dünya bazarında pambıq lifinin hər tonunun orta qiyməti 1650-1700 dollar intrevalında, indiki məzənnə ilə 2800-2900 manat təşkil edir. Mütəxəssilər deyir ki, çiyidin müəssisədən topdansatış qiyməti isə 350-400 manat aralığında dəyişir. Deməli, fermerdən alınan 2.5 ton pambığa orta hesabla 1570-1680 manat (1400-1500 manat xam pambığın alış qiyməti+170-180 manat emal xərci) emal müəssisəsi vəsait xərcləyir. Bunun müqabilində onun sərəncamında təxminən 3200-3300 manat bazar dəyəri olan əmtəəlik məhsul var. Bu o deməkdir ki, fermer ağır fiziki işdə işlyərək çəkdiyi hər 100 man. xərcin müqabilində 112 manat pul götürür, emal müəssisəsi isə cəkdiyi hər 100 man. xərcin müqabilində 200 man., yəni 2 dəfə gəlir götürür. Bu çox ədalətsiz bölgüdür.

Bu təxmini hesablama əsasında müəyyən etməyə çalışdıq ki, fermerlərin və emalçıların əmtəəlik məhsulunun satış qiyməti arasındakı nisbəti görmək mümkün olsun.

Bu cür ədalətsiz bölgünün bir səbəbi də fermerlərin, istehsalçıların hüquqlarını təmsil edən təşkilatların və qurumların olmamasıdır. Türkiyənin timsalında bir maraqlı nümunəni göstərmək olar. Ölkədə Milli Pambıq Şurası, Fermerlər və Koopretivlər Birliyi, Ziraat Odaları, ticarət birjaları, tekstil sənayeçiləri sindikaları, pambıq emalı müəssisləri pambığın alış qiymətlərinin formalaşmasında birlikdə iştirak edir. Təbii ki, belə olan halda bütün tərəflərin

maraqlarının nəzərə alınması baxımından şəffaf mühit yaranır. Azərbaycandakı vəziyyətə diqqət yetirsək, bu institutlardan heç biri yoxdu. Ortada yalnız qiymətləri diqtə edən az sayda inhisarçı zavodlardır, fermerlərin maraqlarını müdafiə edən hər hansı bir təsisat isə yoxdur.

Azərbaycanda pambıq sənayesi faktiki olaraq çoxlu qəbul məntəqələri və pambıq zavodları olan 3 böyük biznes qurumunun əlində cəmlənib:

1. "MKT İstehsalat Kommersiya” MMC Azərbaycanda ən böyük pambıq tədarükü və istehsalı şirkətidir. Azərbaycanın 20 rayonunda 13 pambıq qəbulu və emalı zavodu, 11 pambıq qəbulu məntəqəsi, 5 innovasiya təsərrüfatı fəaliyyət göstərir.

2. “CTS AGRO” MMC -nin tabeliyində 6 pambıq emalı zavodu, 10-dan çox pambıq tədarükü məntəqəsi var.

3. “Azərpambıq ASK” MMC isə yeni yaradılıb. 25 may 2018-ci il tarixdə “Azərpambıq Aqrar Sənaye Kompleksi” MMC tərəfindən təsis olunub, pambıq istehsalı, tədarükü, emalı və emaldan alınan məhsulların (pambıq mahlıcı, texniki çiyid, pambıq yağı, köməkçi məhsullar, çiyid cecəsi və s.) satışı ilə məşğul olur.

Bu üç böyük şirkət pambığı digər fermer və ailə-kəndli təsərrüfatlarından qəbul etməklə yanaşı, qabaqcadan fermerlərlə, ailə-kəndli təsərrüfatları ilə bağladıqları müqavilələr əsasında pambıq əkini ilə məşğul olurlar.

Ölkədə pambıq sənayesi ilə məşğul olan bu üç əsas şirkətdən əlavə “Aqro-Az MMC”, “P-Agro” MMC və Kənd Təsərrüfatı Nazirliyinin yerli idarələrinin təsis etdiyi MMC-lər də (Məsələn, “Yevlax kənd təsrrüfatı” MMC, “Salyan kənd təsrrüfatı” MMC və s.) pambıq tədarükü ilə məşğul olurlar.

Yuxarıda adı çəkilən emal müəssisələrinin fermerlərlə klaster qurumlarının altında birləşməyi pambıqçılığın inkişafında böyük rol oynaya bilərdi. Bu təcrübədən Qazaxıstanda daha çox istifadə edilir. Pambıq-tekstil klasterləri hər şeydən öncə istehsalın artmasına, keyfiyyətin yüksəldilməsinə, əlavə dəyər zəncirlərinin yaranmasına ümumi maraq oyadır. Məhz bu maraq da sonda pambıqçılığın inkişafına gətirib çıxarır.

Xam pambığın alış qiymətlərinin 60-65 qəp. olması normal qiymət deyil, çox azdır. Türkiyədə, İranda bu rəqəm 90 sent, yəni 1.45-1.50 qəpikdir. Fermerlərin əməyi düzgün qiymətləndirilmədiyi üçün pambıq əkmək üçün maraq azalır, digər daha rentabelli əkinlərə, bostan-tərəvəz əkməyə və sairəyə üz tuturlar.

Ümumiyyətlə pambığın alış qiymətləri hökümət tərəfindən müəyyənləşdirilə bilməz. Azərbaycanda bazar iqtisadiyyatıdır. Bazar iqtisadiyyatı olan yerdə hökümət qiymətlərə müdaxilə edə bilməz. Qiymət azad olmalıdır. Qiymətləri tələbata əsasən bazar müəyyənləşdirir. Əgər kəndli və ya fermer daxili bazarda öz məhsulunun satışını reallaşdıra bilmirsə, ona imkan verilməlidir ki, öz məhsulunu özü ixrac edə bilsin, yəni digər ölkələrin pambıq emalı ilə məşğul olan sahibkarları ilə müqavilə bağlayıb, həmin ölkələrə göndərə bilsin.

Nəticə / *Conclusion*

Pambığın əkin sahələrini 2 dəfə artırmaqla bu sahənin inkişafını 1981-ci il səviyyəsinə olmasa da, ölkə üçün optimal variant kimi 200 min hektara çatdırmaq olar. Bunun üçün pambıq emalı zavodları gəlirləri istehsalçılarla ədalətlilik prinsipi ilə bölüşdürməlidirlər və eyni zamanda pambıqçılıqla məşğul olan kəndli və fermerlərə, bir sözlə sahibkarlara sözdə deyil, faktiki olaraq yaşıl işıq yandırmaq lazımdır. Fikrimizcə, pambıq əkini sahəsinin genişləndirilməsi iqtisadi səmərəsi nisbətən az olan taxıl əkini sahələrinin hesabına olmalıdır, necə ki, vaxtilə pambıq plantasiyalarının hesabına taxıl əkin sahələri artırılmışdır.

Pambığın satınalma qiymətləri ən azından 2 dəfə qaldırılmalı, pambıq emalı zavodları gəlirlərin bölüşdürülməsində kəndli və fermer təsərrüfatlarının xeyrinə güzəştə getməlidirlər.

Müasir mərhələdə aqrar sənaye kompleksində sahələrarası əlaqələrin inkişafının aktual problemi klasterlərin formalaşmasıdır. Pambıqçılıqda bu problem sahələrarası qarşılıqlı əlaqələrin

inkişaf etməməsi və elm, istehsal, emal və marketinq arasında təsirli əlaqələrin olmaması səbəbindən xüsusilə vacibdir. Pambıq-tekstil klasteri pambıq bazarı iştirakçıları üçün iqtisadi cəhətdən sərfəli olacaq, çünki o, yaradılmış məhsulun son istehlakçıya çatdırılmasını sürətləndirir, bu da istehsal qüvvələrinin artmasına, məhsul istehsalının həcminin artırılmasına, istehsal münasibətlərinin təkmilləşdirilməsinə və istehsalın səmərəliliyinin artırılmasına kömək edir. Eyni zamanda gəlirlərin düzgün bölüşdürülməsi üçün optimal şərait yaradılır.

İstifadə edilmiş ədəbiyyat / *References*

APİDP (2017). “Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017–2022-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. 13 iyul 2017-ci il № 3082 http://www.e-qanun.az/framework/36050. İstinad tarixi: aprel, 2021.

APİDDS (2016). "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı 22.09. 2016. nömrə 2350 http://www.e-qanun.az/framework/33749. İstinad tarixi: aprel, 2021.

ARDSK (2021). Dövlət Statistika Komitəsinin nəşrlərinin elektron versiyaları 2020 https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/. İstinad tarixi: aprel, 2021.

ARPHQ (2010). "Pambıqçılıq haqqında" Azərbaycan Respublikasının 2010-cu il 11 may tarixli 1012- IIIQ nömrəli http://www.e-qanun.az/framework/19873. İstinad tarixi: mart, 2021.

Azhimetova G.N. (2011a). Mirovoy opyt i obzor razvitiya khlopkovodstva v Kazakhstane // Sovremennyye problemy nauki i obrazovaniya. №1. https://www.science-education. ru/ru/article/ view?id=4578. Data obrashcheniya: fevral', 2021.

Azhimetova G.N. (2011b). Klasternoye razvitiye khlopkopererabatyvayushchey promyshlennosti v Kazakhstane. Fundamental'nyye issledovaniya, № 8 (2). s. 418-422. http://www. fundamental-research.ru/ru/article/view?id=27976. Data obrashcheniya: Aprel', 2021.

Əliyev T. (2019). Klasterlər: Beynəlxalq təcrübə və innovativ inkişaf. Bakı: Elm və Bilik, 535 s.

Gulyayev R.A., Lugachev A.Ye., Usmanov KH.S. (2017). Sovremennoye sostoyaniye proizvodstva, pererabotki, potrebleniya i kachestva khlopkovoy produktsii v vedushchikh khlopkoseyushchikh stranakh mira. Tashkent: «Paxtasanoat ilmiy markazi» AJ, 171 s..

Hümbətov N.S., Xəlilov X.Q. (2012). Pambıq lifinin texnologiyası. Bakı: Nurlan, 231 s.

Sadıqov Y.M. (2018). “Azərbaycanda aqroemal sahəsinin müasir vəziyyəti və inkişaf perspektivləri. Bakı: Avropa, 85 s.

Производство и переработка хлопка в Азербайджане

Юнус Садыгов
Доктор философии по экономике, доцент,
ведущий научный сотрудник, Институт
Экономики НАНА. Азербайджан.
E-mail: y.sadikhov@mail.ru

Резюме. В статье анализируется и оценивается история выращивания и переработки хлопка в Азербайджане, текущая ситуация, даются информация и рекомендации по перспективам развития. В то же время показаны направления развития хлопководства и хлопковой переработки, обосновано, что по рентабельности сельскохозяйственная продукция является одним из видов деятельности с наибольшим экономическим эффектом. Была подчеркнута необходимос ть поднять хлопок и хлопкоперерабатывающие предприятия в стране, а также трикотажную промышленность на прежний уровень как один из секторов,

альтернативных нефтяному сектору с точки зрения прибыльности. Для повышения конкурентоспособности и повышения эффективности в ненефтяном секторе Азербайджана развитие хлопководства и, параллельно, хлопковой промышленности было определено как приоритетное направление. Было обосновано, что кластеры могут быть более эффективными в развитии хлопковой и трикотажной промышленности, и внесены некоторые конкретные предложения.

Ключевые слова: сырый хлопок, переработка хлопка, хлопковый лифт, субсидия, кластер, цена покупки, рентабельность, стоимость.